# FƏLSƏFƏ

**UOT001.8**

## MÜASİR FƏLSƏFƏ VƏ PLÜRALİZMİN ÜNSİYYƏT MƏDƏNİYYƏTİNƏ DAİR

**Roida RZAYEVA***

***Açar sözlər**: postmodernizm, plüralizm, dialoq, Özününkü, Özgə*

**Giriş**

Müasir həyatın qloballaşması və beynəlmiləlləşdirilməsi dialoqun yenidən anlaşılmasını şərtləndirir, bu da öz növbəsində bir tərəfdən onun qurulması və şərhinə, digər tərəfdən isə həyatın müxtəlif sahələrində funksiyalarına, xüsusilə fəlsəfənin inteqrativ funksiyasından və onun ictimai şüura təsirindən irəli gələn mədəniyyətlərin dialoqunda yeri və roluna diqqəti cəlb edir. Müasir fəlsəfə qarşılıqlı anlaşılmanın dialoji formalarının işlənib hazırlanmasında və reallaşmasında ən aktiv şəkildə iştirak edir. Müasir fəlsəfə məhz dialoq üçün məna məxəzlərinin axtarışı yolu ilə ümumi əsasların inkarı və yaxud axtarışı xaricində müxtəlifliyə əsaslanır. Məsələ ondadır ki, fəlsəfi mədəniyyət gizli dialoqu ehtiva edir.

Müasir dövrdə mədəniyyətin ontologiyasında dialoq inkişaf mexanizmlərindən biri olaraq indiyə qədər görülməmiş dərəcədə aktuallaşır.

Məhz fəlsəfə dialoqun reallaşması və fəallaşması üçün platforma yaradır. Mədəniyyət və fəlsəfənin qarşılıqlı əlaqəsi eyni zamanda bu platformaya əsaslanır. Müasir reallıqlar, o cümlədən mədəniyyətlərin müxtəlifliyi mədəniyyətlərin müstəqil və özlüyündə əhəmiyyətli olan subyektlər kimi dialoqunu şərtləndirmişdir.

Beləliklə, müasir mədəni şəraitə necə tərif (postmodern və yaxud "gec modern") verməyimizdən asılı olmayaraq, dialoqun dəyişmiş şərtlərə görə qurulmasına ehtiyac duyulur.

**Əsas hissə**

Müasir fəlsəfi problemlərin qoyuluşunda dialoq subyekt-subyekt kommunikasiyaları (ünsiyyətinin) fonunda vacib amil kimi çıxış edir. Kimliklərin qarşılıqlı təsiri, nüfuz etməsi və transformasiyası müşahidə olunur. Mədəniyyətdə «daha güclü tolerantlığa doğru "aksioloji" irəliləyişin» (Маньковская, 1999: 20) nəticəsi olan transformasiyalar baş verir. Məhz plüralizmin ünsiyyət mədəniyyəti "Başqasının" anlaşılması vasitəsilə mədəniyyətlərin dialoq potensialını üzə çıxararaq müxtəlif mədəniyyətlərin qarşılıqlı tolerant münasibətlərinin mümkünlüyünü əsaslandırır.

Dialoq əsnasında əsas vəzifə Özününkü və Özgə arasında vasitəçinin üzə çıxarılmasıdır. Belə axtarış müasir komparativ (müqayisəli) fəlsəfədə mövcud olan yanaşmaların (Özgənin dərk edilməsi olaraq rasional yanaşma və onun anlaşılması olaraq hermenevtik yanaşma) kontekstində həyata keçirilir. Öz xüsusi dəyərlər sisteminə malik subyektlər arasında ünsiyyət bu axtarış çərçivəsində dialoqun fenomenoloji müstəvisini meydana gətirir, bu da, zənnimizcə, dialoqun klassik və yaxud ənənəvi şərhindən fərqli olan müasir şərhini verir. Bu müstəvidə Baxtinin "şüurun ancaq iki şüur olduğu zaman mövcud olduğu" fikri aktuallaşır. Məhz şüurda münasibət fenomeni – yeni təfəkkür

*fəlsəfə elmləri doktoru, AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
e-mail: roida@bk.ru

tərzinin xüsusilə qeyd olunan xüsusiyyəti (özünün davranışda sonrakı "maddiləşdirilməsi" (reallaşması) ilə) əks olunur.

Bu qeyd bundan əvvəlkiləri – idrak və müşahidəni – əvəz edir və yaxud tamamlayır. Tərcümə iki şüur arasında həyata keçir və onun adekvatlığına yalnız *Başqasının*spesifik dilini bilərək fəlsəfi ünsiyyət nəticəsində nail olmaq mümkündür.

Yeni kontekst qeyd olunan problemin bu rakursda dərk edilməsinə ehtiyac olduğunu göstərir. Buna müvafiq olaraq, tədqiqatçılar qarşılarına sual qoyurlar: postmodern dialojidirmi?

Bu suala cavab vermək üçün ilk növbədə dialoqun tərifi üzərində dayanmaq, eyni zamanda bu müstəvidə modern və postmodern arasında paralellər aparmaq lazımdır.

Müasir dövrdə dialoq ideyaları fəlsəfədə, kulturologiyada, xüsusilə V.S.Biblerin, M.Baxtinin, E.Levinasın, M.Buberin və başqalarının dialoqikasında öz ifadələrini tapmışdır.

Dialoq "1) prinsip etibarilə bir-birinə çevrilə bilməyən "təfəkkür mədəniyyətlərinin, müxtəlif anlayış formalarının" toqquşma vəziyyətidir (Библер, 1998); 2) mədəniyyətlərin-kontragentlərin məzmununun fəal mübadiləsini nəzərdə tutan qarşılıqlı mədəni təsirin növüdür..." (Лебедев) və s.

Moderndə müxalif fikirlərə güzəştlə yanaşmırlar, əslində dözümsüzlük "böyük hekayələrin" ("metanarrativlərin") əsas xüsusiyyətidir. Postmodernizm müxalifətə, plüralizmə, mədəni fərqliliyə bağlılıq və avtoritetlərə skeptik münasibəti ilə fərdin yerini kollektiv iradənin tutduğu sistemlərə bilavasitə ziddiyət təşkil edir. Müasir dünyada postmodernizm avtoritetlərə hər hansı bir meydan oxumanı qəbul etməyi rədd edən modernin və yaxud premodernin rəvayətlərinə ziddir. Qeyd edilmiş postmodernist asılılıqların müəyyən siyasi çərçivələri mövcuddur.

Postmodernizm yeni təfəkkür tərzi və dünyagörüşü kimi dialoqun özünəməxsus anlaşılmasını təklif edir. Dialoq postmodernizmin gizli xüsusiyyəti kimi çıxış edir.

Əvvəlki fikir birliyinin yerinə çoxfikirlilik və müxtəlif fikirlilik, eyni zamanda mədəniyyətdən mədəniyyətlərə doğru hərəkət (Липовецкий, 1997: səh. 109, 111) postmodern cəmiyyətin dəyişməz plüralistliyini göstərir.

İyerarxiya qaydasından və yaxud həyatda hər hansı prioritet sistemindən imtina postmodernin dialoji təbiətini aşkar edir. Eyni zamanda postmodernizmin paradiqmaların çoxluğunu və rəqabətini elan etməsi postmodernin plüralistliyini şərtləndirir. (Вельш, 1992: 132).

Müstəqil "kimliklərin" paralel yaşamasını deyil, onların qarşılıqlı təsirini, buna müvafiq olaraq həm qarşılıqlı nüfuz etməsini, həm də qarşılıqlı transformasiyasını nəzərdə tutan mədəni plüralizm (Малахов) plüralizmin kommunikativ mədəniyyəti haqda danışmağa imkan verir.

Müəyyən dərəcə postmodernizmin dialoji təbiətinin mənbələri aşağıdakı tərifdə görülə bilər: "Postmodernizm – elastikliyi ifadə etmənin və iyerarxiyaların keçmişdəki kimi olmadıqları, müxtəlif mədəni iyerarxiyaların qarışdırıla və cütlənə biləcəyini göstərmənin ən qısa yoludur". (The Routledge Companion to Postmodernism, 2001: 54)

Dialoq təfəkkürünün əsaslarını bəzi tədqiqatçılar aşağıdakı şəkildə əsaslandıraraq klassik fəlsəfədə aşkar edirlər: "Müxtəlif sivilizasiyaların bir-birilə sıx əlaqəyə (könüllü və yaxud könülsüz) girdiyi, dünya birliyinin isə "sivilizasiyaların toqquşması" (S.Hantinqton) və "antropoloji böhran" (M.K.Mamardaşvili) haqqında daha çox danışmağa başladığı qloballaşma və müasir həyatın beynəlmiləşdirməsi şəraitində məhz klassik fəlsəfə rasionallıq, qloballıq və dialoq istiqamətləri ilə "yeni elmi paradiqmaya" (F.Kapra) və "yeni dünya səhmanına" (G.Künq) sıçrayış üçün intellektual-mənəvi əsas təşkil edə bilər", öz "monoloji təbiəti"nə görə dialoqun qurulmasında metafizika deyil, fərqli həqiqət meyarları, yəni xaricdən kreativliyə əsaslanan dialogikanı özündə ehtiva edən mədənilik meyarları səbəbindən maarifçilik paradiqması münasib sayılır. Bu prizmada maarifçilik para-

diqması dialoqa imkan yaradan həyata yaxınlığı və açıqlığı ilə fərqlənən başqa fəlsəfi mədəniyyət hesab edilir və gizli şəkildə mədəni dialoqu ehtiva edir. (Середкина, 2004: 194-195).

Lakin ümummədəni və ümumdil, buna müvafiq olaraq dialoq məkanının formalaşması üçün simvol və kateqoriyaların mübadiləsi kimi tendensiyaya (bu da hər hansı bir dünya mədəniyyətinin "avtoxtonluğunu" istisna edir) görə hər mədəniyyətə xas olan başqa mədəni kompleksin dəyərlərini dərk etmə ehtiyacı ilə şərtlənmiş "mədəniyyətlərin dialoqu", "mədəni çoxsəslilik" (Середкина, 2004: 195-196) – bütövlükdə mədəniyyətin inkişafını səciyyələndirən problemdir. Beləliklə, bu müstəvidə M.S.Kaqanın "bəşəriyyət dialoqa məhkumdur" iddiası xüsusi əhəmiyyət qazanır. (Каган, 1996: 405).

Əgər mədəni sinkretizmdən mədəni sintetizmə, mədəni monoloqdan mədəni dialoqa doğru inkişaf kulturogenezin qanunauyğunluqlarından biri kimi çıxış edirsə, bu prizmada tarixi-mədəni vəziyyət kimi postmodern "çoxölçülü dialoq" (M.S.Kaqan) dövrünün başlaması kimi qiymətləndirilir.

Postmodernizm biliyin əsaslarını metafizikada deyil, kommunikasiyada, ünsiyyətdə, dialoqda axtaran yeni idrakı – şərhçi idrakı nəzərdə tutur. (Рзаева, 2012: 556) Dialoq hər birinin müstəqil və özlüyündə əhəmiyyəti olan subyektivliyin subyektivliklə görüşüdür. Subyektivliyin inkişafında bərabərhüquqlu həmsöhbətlərin dialoqu mümkündür. Bu da postmodernizmlə eyniləşdirilir (M.S.Kaqan). Dialoqun subyektlərin dialoji əlaqəsi kimi tərifi ilə Baxtində də rastlaşırıq.

Beləliklə, postmodernizm – kommunikativ təfəkkür tərzidir, postmodern isə açıqlıq və dialoqdur. Kommunikativ yanaşma subyekt-subyekt arası əlaqələrə əsaslanır, buna görə də dialoq subyektlərarası əlaqənin mənəvi forması kimi çıxış edir. (Середкина, 2004: 201) Bu müstəvidə dialoqizm postmodernin prinsipi kimi çıxış edir.

Əgər müasir mədəni vəziyyəti mədəniyyətin bir növündən başqa növünə keçid hesab etsək, onun "obyektivist" vurğulu mədəniyyətdən "subyektivist" vurğulu mədəniyyətə keçid kimi xarakterizə etmək olar.

Əgər "subyekt-obyekt" münasibətlərində mədəni obyekt kimi mətn və onun şərhi varsa, "subyekt-subyekt" münasibətlərində onu subyekt əvəz edir. (Середкина, 2004: 199-200)

Beləliklə, mədəniyyətin inkişaf dinamikasını, bu sözün geniş mənasında, "subyekt-obyekt" münasibətlərindən "subyekt-subyekt" münasibətlərinə doğru hərəkət kimi səciyyələndirə bilərik.

Subyekt-subyekt münasibətləri (kommunikasiya) vasitə köməyi ilə ifadə edilə bilər, yəni vasitəçiyə ehtiyacları ola bilər.

Lakin "Özününkü – Özgənin (Öz – Yad /Özgə/)" probleminin təhlilində dialoqun (mübahisənin) bütün iştirakçılarının "total fərqi" vurğulaması ya postmodernist məkanda Vasitəçi fiqurunu aradan qaldırır, ya da müvəqqəti olaraq "özgənin geyimləri ilə" başdan çıxarılmış (Bodriyyarın təbiri ilə) "oyunçunu" nəzərdə tutur. (Середкина, 2004: 201)

Vasitəçiliyin olmaması subyekt-subyekt münasibətlərinin həqiqiliyinin ölçü meyarıdır. Bu arqument Lakanın tezisi ilə izah edilə bilər: "uşaq Başqası ilə rastlaşdıqda, o dərhal öz əvvəlki məsumluğunu itirir və özünü dil vasitəsilə reallıqdan müdafiə etməyə başlayır". Və yaxud Tanrıya münasibət haqda Jiranın tezisi ilə də izah edilə bilər: "insana yalan, vasitəçi gərəklidir", lakin bu tezis Tanrının Başqası kimi tərif edilməsinin mümkün olmadığı haqda iddia ilə təkzib edilir: "Tanrı Başqası deyil. O Tanrıdır" (Qvardini). (Можейко&Майборода, 2001: 251-252).

Vacib şərti monoloji və dialoji təfəkkürün ayrılması, kommunikasiya prosesinin etik komponentin vurğulanması ilə subyektivlik prinsipindən intersubyektivlik prinsipinə doğru dönüş olan totallıq prinsipinin yenidən qiymətləndirilməsi E.Levinasın dialoqikasında əhəmiyyətli yer tutan mə-

sələlərdir. Kommunikasiyanın Levinas tərəfindən postmodernist yenidən qurulması əvvəlki modernist məqsədlərdən imtinanı nəzərdə tutur. (Воробьева, 2001: 409, 413-414)

İntersubyektiv olana Y.Habermas da işarə edir. Lakin hətta o (Y.Habermas) da modern layihəsinin natamam olduğuna istinadən (Habermasın "Postmodern mədəniyyət"dəki "Modern: natamam layihə" məqaləsi) postmodernizmi qəbul etməyərək, əvvəlki "Maarifçilik layihəsinin" monoloji ağlın layihəsi olduğunu hesab edərək, "Maarifçilik layihə"sinə etika və ağlın kommunikativ nəzəriyyəsini daxil edir. "Onu əvəz edən ağıl monoloji mahiyyətindən uzaqlaşmalı, tənqid və sual etməyi, öz əsaslarını dəyişməyi, diskurs aparmağı öyrənməlidir". (Петренко, 2003: 399) Cəm subyekt (onun sayəsində əxlaqi əsaslandırma və razılaşma mümkündür) həqiqətin ümumi səylərin nəticəsi olduğu səbəbindən qəti imperativin monoloqizmi ilə müqayisə edilir. (Середкина, 2004: 194)

Habermasın özünün mürəkkəb və diskursiv nəzəriyyəsində mühüm yer tutan "kompromisə maraq" konsepti müəyyən dərəcədə mürəkkəbdir. (The Routledge Companion to Postmodernism, 2001: 166-167)

Y.Habermasa görə, kommunikativ fəaliyyətin əsasını aşağıdakı prinsiplər təşkil edir: səninlə danışdığım qədər üstüörtülü şəkildə sənin mənimlə söhbətini qəbul edirəm. Bundan başqa, söhbət bilavasitə hərəkəti əvəz etdiyi və dəyişdirdiyi üçün (sual vermədən qətiyyən davam etmərəm və dünyanı dəyişdirmərəm), üstüörtülü olaraq sizin görüşlərinizi saymamaqdansa, eyni zamanda kompromis axtarmağa məcbur olduğumu qəbul edərəm. Başqa sözlə, bütün rasional kommunikasiyanın məqsədi nə etməli olduğumuz barədə kompromisli razılaşmaya nail olmaqdır. Kommunikativ fəaliyyətdə üstüörtülü qaydalara riayət etməyərək dialoq aparmaq hüququmu itirəcəyəm. Postmodernizm bu layihənin bitdiyini vurğulayaraq sadəcə bu oyunu oynamır. Hekayələrin (rəvayətlərin) nüfuzdan düşməsi və onların dağılması hər zaman belə olmalı olduğu fərziyyəsini şərtləndirmir. Bu, sadəcə qarşımızda problem qoyur və bu problemi həll etməyə cəhd etməliyik. (The Routledge Companion to Postmodernism, 2001: 33)

Beləliklə, kommunikativ hərəkətdə iştirakçıların qarşılıqlı anlaşması, konsensus axtarışları, fəaliyyətdə olan fərdlər arasında fikir ayrılığının aradan qaldırılması xüsusi qeyd edilir. (Основные понятия и идеи...)

Postmoderndə dialoq eyni zamanda bir çox dialoqu nəzərdə tutur. Bunlardan bəziləri aşağıdakılardır:

Postmodernizm əksər hallarda keçmişlə şüurlu dialoqdur. Bu da postmodernist plüralizmin bütün keçmişlə bu günü, o cümlədən modernizmi daxil etməsi ilə səsləşir. (Царева, 2007) Məsələn, bu, müasir dünyada köhnə ilə yeninin dialoqudur. Qərb cəmiyyətində postmodernizm sadəcə köhnənin yerində yeninin qərarlaşdırılmasını deyil, eyni zamanda yeni ilə birlikdə dairəvi şəkildə təkrar istifadəsini nəzərdə tutur. Bu da, zənnimizcə, postmodernin dialoji təbiətini göstərir.

Əgər "Maarifçilik layihəsi", demək ki, modern mədəni monoloq, postmodern isə mədəni dialoqdursa, o zaman moderndən postmodernə doğru hərəkət mədəni monoloqdan mədəni dialoqa doğru hərəkətdir. Ənənəvi mədəniyyətdə keçmişin bu günə hökmü monoloji inkişafının birinci formasını təşkil edir. İkincisinin xüsusiyyəti yenilik kultudur, subyektivliyin inkişafı üçüncü formanı – bərabərhüquqlu tərəflərin iştirak etdiyi dialoq formasını şərtləndirir.

Bu müddəalar fəlsəfə (dialogika) olaraq Levinasın etik fenomenologiyası ilə səsləşir. Müasir dialoq fəlsəfəsində (Levinas və s.) etos intersubyektiv məkana xas olan mənəvi imperativlər vasitəsilə müəyyən edilir.

Retro postmodernizmin modernizm və modernitiyə, həmçinin onların yeni və orijinal kultuna qarşı mübarizəsinin bir hissəsi kimi keçmişlə dialoqu təşviq edir. Yəqin ki, keçmişə münasibətdə ən

məlum dəyişikliyi Carlz Cenksin "ikili kodlama" konseptində aşkar etmək olar. Bu zaman həm peşəkarların, həm də xalqın zövqlərinə uyğun olmaları üçün bir binada köhnə və yeni memarlıq üslublarını qəsdən qarışdırmağa cəhd göstərilib. Əksər hallarda retro olaraq müraciət edilən köhnə forma və tərzlərin bu cür təkrar mənimsənilməsi və onların yenidən kontekstuallaşması postmodernin estetikasının simvoluna çevrilmişdir və incəsənət, musiqi və moda kimi sahələrdə əhəmiyyətli rol oynayır. Retro postmodernin etosuna uyğunlaşaraq daha çox əvvəlki üslublara istehzalı münasibət bəsləyir və adi sədaqət və yalnız təqlid deyildir. Daha doğrusu, orijinallıq naminə orijinallıq kultunun tənqidi şərh formasıdır. (The Routledge Companion to Postmodernism, 2001: 350)

Belə bir fikir mövcuddur ki, postmodernizm özünü yeniliklə eyniləşdirərək ənənənin izi ilə gedir. (The Routledge Companion to Postmodernism, 2001: 163)

Bu baxım bucağı Bernşteyndə, Habermasın "Kommunikativ fəaliyyət nəzəriyyəsi"ndə və b. müşahidə oluna bilər.

Riçard Bernşteyn "The New Constellation"də (Richard J. Bernstein, "The New Constellation: Ethical-Political Horizons of Modernity / Postmodernity") (Bernstein, 1990) qeyd edir ki, "Hegelin fəlsəfəsində ən mühüm, güclü və bəlkə də qane edən mövzu kompromisin vəd edilməsi (Versöhnung) və həyata keçirilməsidir. Habermasın kommunikasiya və diskurs təhlili eyni xarakter daşıyır və buna əsasən "sistematik olaraq pozulmuş kommunikasiyanı" aradan qaldırmağa çalışır: "(kompromisə qarşı çıxan) mümkünlüyün, fraqmentasiyanın, parçalanmanın, vahidliyin, çoxluğun və qırılmaların `postmodernist` yüksəlməsi antihegelçi mövqedir". Keçmişdən sitat gətirmə, onu parodiya, təqlid, istifadə və yenidən istifadə (təkrar istifadə) etmə üslubunda postmodernist yanaşma şübhəsiz müasirliyin əhəmiyyətli əlamətidir. Postmodernist intellektual metropolis ortasında "ölü mərkəzin" olmadığı qəbiristansız metropolisdir. (The Routledge Companion to Postmodernism, 2001: 168)

Paradiqmal koordinatlar sistemində (premodern – modern – postmodern) təhlil zamanı postmoderndə premodern, modern və postmodernin dialoqunu görmək mümkündür, çünkü onların yanaşı yaşaması postmodernin səciyyəvi xüsusiyyəti sayılır.

Bəzən postmodern "Qərb"lə "Şərq"in dialoqu, daha dəqiq desək, onların rasionallıqlarının dialoqu sayılır. Bu rasionallıqlar fərqli rasionallıqlar kimi səciyyələndirilirlər: Şərqə irrasionallıq, Qərbə isə rasionallıq şamil edilir. Halbuki, bütövlükdə bu fərqlər müxtəlif dünyabaxışları və bu səbəbdən fərqli rasionallıqlar, məntiqlər, mentallıqlar kimi səciyyələndirilə bilər. Onlardan biri Dekart tərəfindən təsvir edilmiş səthi Qərb rasionnalığı, müvafiq olaraq Qərb təfəkkürü, Qərb metafizikası ilə əlaqələndirilir, çünki məhz Avropa mədəniyyətinin arxasında onun məntiqini təşkil edərək İradə durur. Digəri, onun xaricinə çıxan və müəyyən rasionallığın, hazırkı halda, məsələn Dekart rasionallığının mümkün variantlardan sadəcə biri olduğu zaman postmodernin məntiqinə uyğun olaraq alternativ variantla əlaqələndirilir. Bu yanaşma "postmodernin iki üzü (Şərq və Qərb) olduğu" fikrinin əsasını təşkil edir. Bu eyni zamanda eyni prosesin iki tərəfidir. Bu zaman "Qərb" özgəni məhv etməklə özünü dağıdır, "Şərq" isə özününkünü oyatmaqla xilas olur və özünə qayıdır. (Корнев). Bu nöqteyi-nəzərdən postmodernizm fərqin böyük qələbəsi olaraq (The Routledge Companion to Postmodernism, 2001: 28)dialojidir.

**Nəticə**

Keçid dövründə olan müasir mədəniyyət "keçmiş və gələcəyin dialoqunu" reallaşdırmalıdır. (Каган, 1996: 402) Keçmişə maraqla yanaşı gələcəyə açıq olmaq, "müxtəlif konsepsiya və layihələrin şəksiz əhəmiyyətinin dərk edilməsi" (Вельш), həmçinin subyekt-subyekt münasibətlərinin dialoqunun prioritetliyinin anlaşılması postmoderni həm bu gün, həm də xüsusilə gələcəkdə aktuallaş-

dırır. (Бузгалин, 2004) Bu rakursda postmodern – mədəniyyətin keçid növü kimi "çoxölçülü təfəkkür paradiqmasına keçid" (Царева), postmodernist dialoq isə müxtəlif, lakin bərabər hüquqlu mövqelərin toqquşması kimi çıxış edir.

Müasir dünyada yeni mədəni reallıqlar dialoqun formasını diktə edir, buna müvafiq olaraq, qloballaşmanın təsiri altında dialoqun yenidən qiymətləndirilməsinə və daha geniş şərhinə ehtiyac vardır. Bu prizmada postmodern dünyanın yeni dünyagörüşü kimi genişləndirilmiş dialoq ideyasına əsaslanır. (Середкина, 2004: 196, 198)

Sonda qeyd edə bilərik ki, müasir dövrdə dialoqun əhəmiyyəti heç olmadığı qədər artır. Şüur fəlsəfi ünsiyyəti həyata keçirən vasitə olaraq müasir dövrə xas yeni təfəkkür tərzini formalaşdırır. Postmodern şəraitdə bu təfəkkür tərzi çoxfikirlilik və çoxmədəniyyətlilikdə ifadə olunur. Bütün bunlar postmodernin dialoji təbiətini və mədəni plüralizmi aktuallaşdırır. Bu isə kommunikativ mədəniyyətə diqqəti artırır. Müasir fəlsəfə bu prosesin ən vacib mexanizmlərindən biridir.

## ƏDƏBİYYAT

1. Bernstein R.J. (1990). The New Constellation: The Ethical-Political Horizons of Modernity/Postmodernity. Cambridge, Mass.: MIT Press

2. Библер В.С. (1998). От наукоучения – к логике культуры. М.

3. Бузгалин А.В. (2004). Постмодернизм устарел... (Закат неолиберализма чреват угрозой «протоимперии») // Вопросы философии», №2. –
http://coollib. com/b/192991/read

4. Каган М.С. (1996). Философия культуры. СПб.: Петрополис

5. Корнев С. Трансгрессивная революция. Посвящение в постмодерн-фундаментализм Часть 3. Западный постмодернизм и восточный постмодернизм Постмодерн как оружие против постмодерна – http://kitezh.onego.ru/trans_3.htm

6. Лебедев С. Диалог культур // Философский глоссарий. Национальная философская энциклопедия – http://terme.ru/dictionary/190/word/%C4%C8%C0%CB%CE%C3+%CA%D3%CB%DC%D2%D3%D0/

7. Липовецкий М. (1997). Русский постмодернизм. Очерки исторической поэтики. Екатеринбург: Урал. гос пед. ун-т

8. Малахов В. Зачем России мультикультурализм? // Государство и антропоток - http://www.antropotok.archipelag.ru/text/a062.htm

9. Маньковская Н. (1999). От модернизма к постпостмодернизму via постмодернизм // Коллаж-2. М.: ИФ РАН, с. 18-25 –
http://iph.ras.ru/page52528989.htm

10. Можейко М.А., Майборода Д.В. (2001). «Другой» // Постмодернизм Энциклопедия. Минск: Интерпрессервис; Книжный дом, с. 250-252

11. Основные понятия и идеи теории коммуникативного действия Хабермаса –
http://historic.ru/books/item/f00/s00/z0000022/st079.shtml

12. Петренко Е.Л. (2003). Ю.Хабермас размышляет о модерне // Хабермас Ю. Философский дискурс о модерне. Пер. с нем. М.

13. РзаеваР.О. (2012). К вопросу о диалогичности постмодерна / «Диалог культур в условиях глобализации» Материалы Бакинского форума, посвящённого памяти Гейдара Алиева. М.: «Канон+» РООИ «Реабилитация», с.554-559

14. Середкина Е.В. (2004). Может ли «Проект Просвещения» быть завершенным? (К вопросу о культурном потенциале классической философии) / Вызовы современности и философия: Материалы «Круглого стола», посвященного Дню философии ЮНЕСКО. Бишкек, с.191-202 - http://anthropology.ru/ru/texts/seredkina/modphil02_24.html

15. ЦареваН.А. (2007). К оценке постмодернизма в современной российской философии // Электронное научное издание «Аналитика культурологии» -

№1(7)http://analiculturolog.ru/index.php?module=subjects&func=viewpage&pageid=279

16. The Routledge Companion to Postmodernism. (2001). Edited by Stuart Sim. London: Routledge, 401 pp.

17. Вельш В. «Постмодерн». Генеалогия и значение одного спорного понятия. – http://old.kspu.ru/ffec/philos/chrest/vel.html

18. ВельшВ. (1992). «Постмодерн». Генеалогия и значение одного спорного понятия //Путь. Международный философский журнал. № 1 (2), с. 109-136

http://ecsocman.hse.ru/data/2010/06/21/1212533843/x25B5nie_odnogo_spornogo_ponyatiya.pdf

19. Воробьева С.В. (2001). Левинас // Постмодернизм Энциклопедия / Сост. А.А.Грицанов, М.А.Можейко. Минск: Интерпрессервис; Книжный дом, с.409-415

***Резюме***

***Роида Рзаева***

***К вопросу о современной философии и коммуникативной культуре плюрализма***

***Ключевые слова:*** *постмодернизм, плюрализм, диалог, Своё, Чужое*

Современная философия самым активным образом участвует в разработке и реализации диалогических форм взаимопонимания. Именно через поиск смысловых оснований для него она выходит за пределы отрицания или поиска общих основ и направлена на понимание через многообразие. Дело в том, что философская культура имплицитно содержит диалог. Взаимосвязь культуры и философии обусловлена также тем, что именно философия создаёт платформу для реализации и активизации диалога.Постмодернизм в качестве нового стиля мышления и миропонимания диктует своё понимание диалога, который выступает как его имманентная характеристика. В постмодерне можно усмотреть диалог премодерна, модерна и постмодерна, так как их сосуществование считается характерной чертой постмодерна. В ходе диалога актуализируется задача выявления посредника между Своим и Иным. Сознание как средство, осуществляющее философскую коммуникацию, формирует новый тип мышления, свойственный современной эпохе. В условиях постмодерна этот образ мышления выражается в многомыслии и мультикультурализме. Всё это актуализирует диалогическую природу постмодерна и культурный плюрализм. А это привлекает внимание к коммуникативной культуре.

***Summary***

***Roida Rzayeva***

***On Modern Philosophy and Communicative Culture of Pluralism***

**Key words**: *postmodernism, pluralism, dialogue, Own, Other*

Modern philosophy takes an active part in working out and realization of dialogical forms of mutual understanding. It falls outside the limits negation or search of the general bases and is directed on understanding through variety by virtue of search of the semantic bases for it. The matter is that the philosophical culture implicitly contains dialogue. The interrelation of culture and philosophy is caused also by what the philosophy creates a platform for realization and activation of dialogue. Postmodernism as a new style of thinking and outlook dictates the understanding of dialogue which acts as its immanent characteristic. It is possible to see dialogue of premodern, modern, and postmodern in postmodern as their coexistence is considered characteristic feature of postmodern. The problem of revealing of the intermediary between Own and Other is brought up to date during the dialogue. The consciousness as the means, which is carrying out philosophical communication, forms a new type of the thinking, peculiar characteristic of the modern epoch. In the conditions of postmodern this mentality is expressed in polythinking and multiculturalism. All it brings up to date the dialogical nature of postmodern and cultural pluralism. And it attracts attention to the communicative culture.